**Bakı Avrasiya Universiteti - 30**

# Nüfuzumuzun artmasını təmin edəcək vasitələri davamlı inkişaf etdirməkdəyik

***Ölkənin ilk özəl universitetlərindən biri olan Bakı Avrasiya Universitetinin (BAU) yaradılmasından 30 il keçir. Ötən illər ərzində çətin, mürəkkəb və şərəfli bir yol keçən universitet təkcə milli düşüncənin inkişafında önəmli yeri olan bir təhsil-tədris ocağı kimi yox, həm də beynəlxalq miqyasda kadr hazırlığına əvəzsiz töhfələr verən özəl tədris və elm müəssisəsinə çevrilib.***

***İndi 30-cu ildönümünü qeyd edən universitetin bugünkü fəaliyyəti haqqında nə demək olar?! Əlamətdar yubiley ərəfəsində universitetin rektoru fəlsəfə elmləri doktoru, professor Nazim Hüseynli suallarımızı cavablandırır.***

***- Nazim müəllim, 30 il əvvəl özəl bir tədris ocağı qurmaq fikri haradan yarandı?***

- O zamanlar Azərbaycan təhsil sistemi rus təhsil sisteminin tərkibində idi. SSRİ dağıldı, müttəfiq respublikalar suveren dövlətlərə çevrildi, amma bir çox ziddiyyətlər qalmaqda idi. Əsas məsələ ideyanın meydana gəlməsidir, dəyişmiş şəraitdə fəaliyyət növü seçməkdir. Çünki dəyişən mühitə adaptasiya olunmaq hamımız üçün başlıca amildir. Ona uyğunlaşıb, mövcud şəraitdə müvafiq fəaliyyət növü seçmək - bu, inkişaf üçün əsas şərtlərdən biridir.

Mənim belə bir məqaləm var - "Biososial sintez". Müəyyən ideya irəli sürülür, bu ideyanı ortaya qoyan şəxs onun müəllifi olur. Bu ideyanı qəbul edən insanlar o cəmiyyətdə formalaşır ki, ondan yan keçmək qeyri- mümkündür. Ulu öndər Heydər Əliyevin tarixdə əvəzsiz xidmətlərindən biri də ondan ibarət idi ki, o, Azərbaycanın məhvə düçar olduğu bir zamanda azərbaycançılıq məfkurəsini ortaya qoydu. Burada yaşayan hər bir etnosu daha sıx birləşdirdi, yəni bizim dediyimiz ortaq məxrəci formalaşdırdı, onun lideri oldu və bu liderliyin ətrafında cəmiyyət yenidən quruldu. Bu ideyanı qəbul edənlərin hər biri onun daşıyıcısına çevrildi. Beləliklə, biz də ideya daşıyıcısı olaraq yaranmış əlverişli mühitdən faydalandıq, Azərbaycanda o dönəmdə özəl təhsil müəssisələrinin yaranması-na zərurəti dərhal dəyərləndirdik.

***- Bakı Avrasiya Universitetinə gedilən çətin və şərəfli yolda Ali Diplomatiya Kollecindən – Bakı Diplomatiya Universitetinədək qısa ekskurs etdikdə xatırladıqlarınız varmı?***

- İlk illərdə çətinliklərimiz çox idi. 5 fakültə, 765 təhsil alan və 86 professor-müəllim heyəti ilə bu yola çıxdıq. Həmin dövr Azərbaycan gənc müstəqil dövlət kimi formalaşmaqda idi. Tezliklə beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunacaq, diplomatik kadrlara ehtiyac yaranacaqdı. Bu zamanın qaçılmaz bir tələbi idi. SSRİ-nin paytaxtında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu vardı. Beynəlxalq münasibətlər geniş anlayışdır. Məsələn, o vaxt Bakı Dövlət Universitetində beynəlxalq münasibətlər ixtisası açıldı. O prizmadan beynəlxalq münasibətlər ixtisasını seçdik. Onların tədris proqramlarına baxanda gördük ki, bu tarix fakültəsinin bir bölməsidir. Özümüzə sual verdik: beynəlxalq münasibətlər nə deyilən şeydir? Hər bir ümumi anlayış müəyyən xüsusi anlayışlarda konkretləşir. Beynəlxalq münasibətlər yalnız hüquqi münasibətlərdimi? Bu, iqtisadi, siyasi, informasiya və s. münasibətlər də ola bilər. Sahələr üzrə ixtisaslaşma getmirsə, təhsildə tətbiqini tapmırsa, mənasız bir ixtisasa çevrilmiş olar. Jurnalistika sahəsində də ənənəvi yanaşmalardan fərqli çıxış edərək sahə jurnalistikası ideyasını təklif etdik. Neft sahəsindən yazan jurnalist təhsildən, siyasi və ya hüquqi sistemdən səriştəli yaza bilməz və əksinə. Yazsa da, o yazının peşəkarlığı olmaz, effektiv nəticə verə bilməz. Elə bir jurnalist göstərin ki, həm elmdən, həm təhsildən, həm neftdən, həm məişətdən eyni dərəcədə yüksək keyfiyyətdə yazsın. Bu, universallığa aparır. Unversallıq isə həmişə diletantlığa gətirib çıxarır. Məsələni Nazirlər Kabineti qarşısında qaldırdıq və ilk dəfə olaraq beynəlxalq münasibətlər anlayışının arxasında mötərizədə "Beynəlxalq hüquq", "Beynəlxalq jurnalistika", "Beynəlxalq iqtisadi münasibətlər" kimi ixtisaslaşma sahələrinin göstərilməsinə nail olduq. Azərbaycanda "Diplomatiya", "Sinxron tərcümə", "Regionşünaslıq" ixtisasları ilə bağlı ilklərə də imza atdıq. Beləcə, biz cəmiyyətdə baş verənlərdən faydalanaraq Ali Diplomatiya Kollecindən Bakı Diplomatiya Universitetinə və oradan da Bakı Avrasiya Universitetinədək şərəfli və uğurlu bir yol gəldik.

***- Bir alim və elm adamı kimi fəaliyyətinizdə Bakı Avrasiya Universitetinin yeri haqqında nə deyərdiniz?***

- Bu gün Bakı Avasiya Universiteti quruculuq və inkişaf dövrünü yaşamaqdadır. Hər bir valideyn uşağının keçdiyi həyat yolunu əzbər bilir. Uşaqlıq dövrü, gənclik dövrü, ali təhsilə qədərki dövr, ali təhsildən sonrakı dövr... Amma burada dayanıqlığı təmin edən bir amil var: o da yaratdığını sevmək, ona dəyən daşları özünə dəyənlər kimi qəbul etmək, əldə etdiyin sevinc və uğurları paylaşmaqdır. Başqa sözlə, Bakı Avrasiya Universiteti-potensialımın və istəyimin üst-üstə düşdüyü bir fəaliyyətimdir, əldə etdiyim ən dəyərli uğur, paylaşa biləcəyim fəlsəfəmdir.

***- Ölkəmizin indiki inkişaf mərhələsində təhsilimizin gələcəyini necə görürsünüz?***

- Düzü bir az çətin sual oldu. Amma bir həqiqət var ki, təhsil dövlətimizin diqqət yetirdiyi ən mühüm sahədir. Buna yanaşmada yol verilən səhvlərin acı nəticəsi gələcək kadrlar sistemində özünü göstərir. Son illər təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi və potensial imkanların artılması məqsədilə dövlət proqramları hazırlanaraq icra edilib. Universitetdə "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq İtaliyanın Genuya Universiteti ilə birgə magistratura səviyyəsində ikili diplom proqramı həyata keçirməkdədir. Koronavirus pandemiyası dövründə təhsil sisteminin distant tədrisə keçməsi ilə əlaqədar ən qısa müddətdə virtual təhsil bazasının yaradılması dövlət və aidiyyatı qurumların bu sahədə çevik və səriştəli olduqlarını bir daha təsdq etdi. Təhsilə diqqətin əsas təzahürü olaraq Prezident İlham Əliyev tərəfindən təsdiq olunan "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji inkişaf sənədində XXI əsrin dəyişən tələblərinə cavab verən təhsil sisteminin formalaşdırılması dayanıqlı dövlətin əsas hədəflərindən biri kimi öz əksini tapıb. Bugün ən böyük dəyər biliyin yaradılması ilə yanaşı, onun mənimsədilməsi, praktikaya tətbiqidir. Əgər biz bunu yetirmələrimizə verə bilmiriksə, heç nəyə nail ola bilmərik. Kadr hazrlığı bütün zamanlarda cəmiyyətin inkişafında aparıcı rol oynayıb, bu sahəni gücləndirmək, bu günün və sabahın sürətlə dəyişən tələblərinə cavab verən yeni düşüncəli, müasir biliklərə sahib gənclərin hazırlanması bizim təminatlı gələcəyimiz deməkdir. Təhsilimizin gələcəyi də bu təminatlı gələcəyi gerçəkləşdirən nəslin necə yetişdirəcəyimizlə ekvivalentdir. Fikrimcə, bu istiqamətdə Azərbaycanın ali təhsil müəssisələri var gücü ilə çalışır.





***- Heç şübhə etmirik ki, 44 günlük Vətən müharibəsinin və tarixi qələbənin bu məsələdə də önəmli rolu oldu. Universitetin müəllimləri və məzunları Qarabağ zəfərinə nə kimi töhfə verdilər?***

- Bəli, bu, həyatımızın hələ uzun illər də danışılacağı, bütün dünyanı heyrətə gətirən hadisədir. Milli kimliyimizin tarixdə təsdiqidir və şərəf duyulan bir tarixdir. Ali Baş Komandanın, Azərbaycan Prezidenti İlham Əliyevin, şanlı Azərbaycan Ordusunun və xalqımızın böyük qələbəsidir. Çoxsaylı tələbə və məzunlarımız bu müharibədə könüllü iştirak ediblər, 2 şəhidimiz, 4 qazimiz var. Biz universitet ailəsi olaraq şəhid olan məzunların xatirəsini hər zaman ehtiramla yad edir, qazilərə diqqət və qayğı göstəririk. Gənclər arasında vətənpərvər ruhun yüksəldilməsi istiqamətində keçirilən silsilə tədbirlərdə hər iki müharibədə iştirak etmiş əsgər və qazilərimizi təhsil alanlarımızla görüşlərə dəvət edirik. Bu görüşlərdə post müharibə dövrü gənclərin qarşısında duran hədəflərlə bağlı mütəmadi söhbətlər aparılır.

***- Təbii ki, uğurlarınız və 30 illik yol bir yol gələcəyə daha inamlı münasibət yaradır. Gələcək hədəflərinizdən danışmağınızı xahiş edərdik...***

- Əslində hədəflər o qədər çox və zəngindir ki, hansından başlamaq, ya hansına daha çox önəm vermək lazımdır sualı bizim də qarşımızda durur. Hesab edirəm ki, bu gün ən zəruri məsələ təhsilin keyfiyyətini yüksəltməkdir. Eyni zamanda beynəlxalq rəqabət indekslərinə cavab verən bir universitet qurmaq əzəl məqsədlərimizdəndir. Özəl universitet olaraq nüfuzumuzun artmasını təmin edəcək vasitələri davamlı inkişaf etdirmək lazımdır. Bunlara elmi tədqiqatın keyfiyyətini beynəlxalq səviyyəyə çatdırmaq, universitetin beynəlxalq əməkdaşlıq əlaqələrini genişləndirilmək, müsbət təcrübənin öyrənilməsi üçün icra mexanizmlərinin qurulmasını təmin etmək, effektiv strateji planlaşdırma prosesində akademik heyəti motivasiya etmək, məzun-universitet əlaqələrini genişləndirmək, dövlət-təhsil-sənaye işbirliyinə nail olmaq və s. aid edilə bilər. Bunları əldə etmək, həm də müasir çağırışlara cavab verən kadrlar yetişdirmək deməkdir və günümüzün ən aktual məsələlərindəndir.

**- Bir daha yubileyinizi təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Maraqlı müsahibə üçün də təşəkkür edirik.**

***Namiq QƏDİMOĞLU, "Xalq qəzeti"***